# Abdurrahim Ötkürün "İz" romanında tarixi gerçəkliyin bədii ifadəsi

**Mehman Həsənli**
Filologiya üzə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: mehman.hesen@gmail.com

**Annotasiya.** Müasir dünya ədəbiyyatının əsas janrı hesab olunan romanın türk xalqlarının nəsrində inkişafı XX əsrə təsadüf edir. Tarixi şəraitdən asılı olaraq romanın ayrı-ayrı türk xalqlarında yaranması və inkişafı prosesi fərqli şəkildə baş vermişdir. Qədim və zəngin mədəniyyəti ilə seçilən uyğurların ədəbiyyatında roman janrı XX əsrin ikinci yarısında, 1970-80-ci illərdə yaranıb inkişaf etməyə başlamışdır. Tanınmış uyğur fikir adamı, yazıçı və şairi Abdurrahim Ötkürün müəllifi olduğu romanlar XX əsr uyğur həyatının salnaməsi xarakterindədir. Onun "İz" romanı uyğurların milli mübarizə tarixinə həsr olunmuş ən yaxşı əsərlərdən biridir. Məqalədə Abdurrahim Ötkürün "İz" romanında 1911-1913-cü illərdə Şərqi Türküstanda baş verən tarixi hadisələrin nəsrdə inikası məsələrləri tədqiqata cəlb edilmişdir.
**Açar sözlər:** türk xalqları, roman, uyğur yazıçısı, Abdurrahim Ötkür, şair

**Məqalə tarixçəsi:** göndərilib – 11.11.2021; qəbul edilib –19.11.2021

# Artistic expression of historical reality in the novel "Trace" by Abdurrahim Otkur

**Mehman Hasanli**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: mehman.hesen@gmail.com

**Abstract.** The development of novel in prose of the Turkish people that is considered a main genre of modern world literature dates back to the XX century. Depending on historical circumstances, emergence of the novel by separate Turkic nations and development process happened in a different way. The genre of novel in the literature of Uyghurs distinguished by their ancient and rich culture started to develop in 1970-1980s. Novels written by a prominent Uyghur thinker, writer and poet Abdurrahim Oturk are of the nature of Uyghur life's chronicle in the XX century. His novel "Trace" is one of the best works dedicated to the history of national struggle by Uyghurs. In the article the reflection issues of historical events happened in Eastern Turkistan in 1911-1913s in the novel "Trace" by Abdurrahim Otkur has been involved in the study.
**Keywords:** Abdurrahim Otkur, historical reality, the novel "Trace", Uyghur literature, novel

**Article history:** received – 11.11.2021; accepted – 19.11.2021

## Giriş / *Introduction*

Qədim və zəngin Qaraxanlı mədəniyyətinin varisi olan Şərqi Türküstanda yaşayan uyğurların ədəbiyyatında, xüsusən romançılığında 1980-ci illər paradiqma dəyişikliyi baxımından əhəmiyyətli olmuşdur. Bu dəyişiklik ilk növbədə tarixi situasya ilə - mədəniyyət inqilabı adlandırdıqları Mao in-

qilabı (1966-1976) ilə bağlı idi. Yaranan yeni tarixi mühit, inqilab dövrünün sərt və haqsız yanaşmalarına münasibət özünü ilk növbədə tarixi nəsrdə göstərməyə başlamışdır. “1976-cı ildə Maonun ölümündən sonra Çinin 11-ci Böyük Konqresinin (1978) Üçüncü Qurultayında qəbul edilən qərarla dövlət siyasətində dəyişikliklər edilmiş və qismən yumşalmalar olmuşdur. Mədəni inqilab dövründə çox iztirab çəkmiş uyğurlar bu tarixdən etibarən qadağalar qismən qalxdığı üçün yazıçılarına qovuşmuşlar. Bu tarixdən etibarən uyğur yazıçıları yenidən yazmaq haqlarına və müəyyən qədər də olsa, yazma müstəqilliyi əldə etdiyi üçün altı-yeddi il ərzində ard-arda ondan artıq roman nəşr edilmişdir” [4].

Ciddi şəkildə olmasa da, bu paradiqma dəyişikliyi uyğur romanında janr transformasiyası ilə nəticələnmiş, janrın qabıq ünsürləri dəyişmiş, tarixi və milli mövzulara müraciət artmışdır. 1980-ci illərdə uyğur ədəbiyyatında roman janrı aktuallaşmağa başlayır və Abdurrahim Ötkür, Zordun Sabir kimi tarixi roman müəllifləri olan yazıçılar meydana çıxır. Halbuki, bu dövrə qədər uyğur nəsrində romandan danışmaq çox çətindir. Yalnız 1949-cu ildə yazılmış bir nümunəni, Məhəmməd Əmin Tohtinin “Qanlı torpaq” romanını saymasaq, demək olar ki, uyğur romanının təşəkkülü və inkişafı 1980-ci illərə təsadüf edir. Türk xalqları romançılığında dünya ədəbiyyatının təsiri ilə olan dəyişmələr, xüsusən də sovet imperiyası tabeliyində yaşamağa məcbur olan xalqlarda bir-birinə bənzər şəkildə baş verirdisə, uyğur romançılığında bu proses nisbətən ləng getmişdir. Modern ədəbiyyatın əsas janrı olan romanın uyğur ədəbiyyatında məhz 1970-80-ci illərdə yaranması heç şübhəsiz ki, tarixi zərurətlə bağlı olmuşdur. Mədəni inqilab dövründə uyğur fikir adamları təzyiqlərlə üzləşmiş, yazılan əsərlər üzərində ciddi senzura tətbiq edilmişdir. Bu dönəm bitdikdən sonra başlanan nisbi yumşalma nəsrdə, onun ən uğurlu ifadə forması olan romanda öz əksini tapmağa başlamışdır. Bu romanların yazarları da təsadüfi şəxslər olmayıb, uyğur ictimai həyatının tanınan imzaları olmuşlar.

XX əsr uyğur ictimai-ədəbi fikir tarixinin ən görkəmli şəxsiyyətlərindən biri Abdurrahim Ötkür olmuşdur. Yazmış olduğu elmi məqalələr (Nəvainin izindən boylanarkən”, “Milli teatrın xüsusiyyətləri nədir?”, “Uyğur klasskik ədəbiyyatı haqqında bəzi mülahizələr”, “Çağatay ədəbiyyatı və əruz vəzni” və s.), şeirlər (Ömür mənzilləri şeir kitabı “Qaşqar keçisi” poeması), pyes (Lutpulla Mütəlliblə birlikdə yazdığı və uyğur xalqının yaşantılarını ifadə edən “Çin moden” əsəri), romanlar (“İz” və iki hissəli “Oyanan torpaqlar”) və eləcə də etdiyi tərcümə və tərtib kitabları ilə (Türk dilləri divanı, “Qutadğu bilik”) uyğur ədəbiyyatını zənginləşdirmişdir.

## Əsas hissə / *Main Part*

Abdurrahim Ötkürün “İz” romanı uyğur ədəbiyyatının, romançılığının tarixində qızıl xətlə keçən və xalqın kimliyini ifadə edən ən əsas əsərlərdən biridir. Yazıçı əsərdə uşaq və gənc yaşlarında doğulub boya-başa çatdığı Kumul bölgəsində baş vermiş üsyan haqqında tarixi faktları bədi kontekstdə təqdim etmişdir. Müəllif əsərində romanın yazılma səbəbini qeyd etmişdir: “...tarixi mövzuda yazılan bir roman tam mənasıyla həm gerçək bir tarix, həm də bəddi əsərdir. Yəni, tarix bilgisi ilə romançılıq sənətinin canlı bir şəkildə birləşməsi, hər şeydən öncə tarixi gerçəkliyin əsas alınmasını vacib edir. Belə bir əsər, müəllifdən tarixin dərinliyinə enməyi bilməyi və tarixin içindən ustalıqla sıçrayıb çıxmağı gözləyir. Mən bu romanda bu prinsiplərə sadiq qalmağa çalışdım. Bu kitab heç olmasa tariximizdəki qəhrəmanların izlərinə işıq tutmaqda bir başlanğıc ola bilərsə, bundan çox xoşbəxt olaram. Əskik yerlərini sonrakılar doldurar, xətaları xalq düzəldər” [1, s.702].

“İz” tarixi-sənədli romanında XX əsrin əvvəllərində, 1911-1913-cü illərdə Şərqi Türküstanda, Kumul bölgəsinin dağlarında zülmdən zinhara gəlmiş əhalinin Teymur xəlifənin başçılığı altında azadlıq uğrunda apardığı mübarizədən bəhs edilir. Müəllifin əsərə “İz” adını verməsi təsadüfi olmayıb, varisliyi və uyğur xalqının gələcək arzularının ifadəsi məqsədini daşıyır. Əsər ilk türk lüğətinin müəllifi, böyük fikir adamı Mahmud Kaşğarlının “Ayaq izi, birilərinin yürüdüyünü göstərir” [s.698] – epiqrafı ilə verilmişdir. Abdurrahim Ötkür romanda uyğurlara qarşı aparılan amansız istismara qarşı xalqın dirənişini və bu mübarizənin cumhuriyyətə qədər davam edəcəyini bildirmişdir. O özü də bu mücadilənin öncüllərindən olmuş, dəfələrlə həbs edilmiş, təzyiqlərə məruz qalmışdır. Əsər Ötkürün 1950-ci illərdə yazdığı “İz” şeiri ilə başlayır:

*Gənc idik uzun səfərə atlanıb getdiyimizdə biz,*
*İndi ata minəcək yaşda oldu nəvəmiz.*
*Az idik müşkül səfərə atlanıb çıxdığımızda biz,*
*İndi böyük karvan olduq qoyub çöllərdə iz.*
*Qaldı iz çöllər arasında, həm keçidlərdə yenə,*
*Qaldı neçə-neçə aslanlar çöldə qəbirsiz.*
*Qəbirsiz qaldı deməyin, ağacın qızarmış budağında,*
*Gül-çiçəyə bürünür dan vaxtı baharda qəbrimiz.*
*Qaldı iz, qaldı mənzil, qaldı uzaqda hamısı,*
*Qopsa fırtına, sovrulsa qumlar itməz izimiz.*
*Dönməz karvan yolundan atlar çox zəif olsa belə,*
*Bu izi bir gün nəvəmiz tapacaq heç olmazsa,*
*Və ya nəticəmiz. [s.698]*

İyirmi səkkiz fəsildən ibarət olan romanın hər fəslində müxtəlif əsərlərdən, ayrı-ayrı xalqların şifahi xalq ədəbiyyatından epiqraflar verilmişdir. Romanda XX əsrin əvvəllərində ümumilikdə türk xalqlarında mövcud olan gerilik və bundan istifadə edən imperiya rəhbərliyinin idarəetməni əlində saxlamaq üçün həm mədəni, etnik zəmində apardığı siyasət "İt kökəlsə sahibini qapar, qul kökəlsə ağasına qarşı çıxar. Vətəndaş dediyini çiynindən basıb qımıldamayacaq vəziyyətə gətirmək lazımdır" [s.729], – təkrar-təkrar ifadə edilən misalla təqdim edilmişdir. Qədim və zəngin ənənəyə, tarixə malik Şərqi Türküstan elinin əsarət altına düşərək əzilməsi, amansız istismar altında, repressiyaya məruz qalaraq yaşaması dövrünün aparıcı fikir adamlarından olan Abdurrahim Ötkürü də düşündürmüş, Teymur xəlifənin Heydər əfəndi adlı tatar müəllimi ilə dialoqunda bu məsələyə öz münasibətini ifadə etmişdir. "Siz uyğurlar uzun bir tarixə, mədəniyyətə sahib bir xalq idiniz. Türk dilində danışan xalqlar içərisində yazını ilk öncə sizlər icad etmisiniz. Bu yazı bütün türk xalqlarının ortaq yazısı olmuşdur. Bugünkü monqolların yazısı da qədim uyğur yazısı əsasında meydana çıxmışdır. Çingiz xan və onun nəvələrinin hökmdarlıq etdiyi zamanlarda bütün dövlət işlərinin idarəsi və elm, təhsil işləri uyğur alimlərinin əlində idi. Tatar xanları da uyğur alimlərindən çox şey öyrənmişlər" [1, s.728].

Romanda hadisələr Niyaz dorğanın rəhbərlik etdiyi Kumul vilayətində baş verir. Ayqız adlı qazax qızının Amanqul tərəfindən tapılıb evə gətirilməsi hadisələrindən başlayır. Ayqızın yaşadığı bölgədə məcburi şəkildə ərə verilmə cəhdi, sevdiyi Cumatayla qaçması, yolda Cumatayın onları izləyənlər tərəfindən öldürülməsi ilə başlanan taleyi Səfərqulların evində də rahat keçmir. Belə ki, Kumula rəhbərlik edən Niyaz dorğa Ayqızı öz oğlu Hamuşa almaq istəyir və bunun üçün min bir hiləyə əl atır. Din və din xadimləri ilə bağlı məsələ romanda qırmızı xətt kimi keçir, bir çox hallarda inanc yerli və mərkəzi hökumətin əlində alət, vasitə kimi istifadə olunur. Niyaz dorğa ilə ortaq hərəkət edən İmam Hoşur bütün dəyərlərə zidd olan bu istəyi dini alət edərək yoluna qoymağa çalışır. "Sabah cümədi. Uzaqdan, yaxından hər kəs gələcək. Səfərqulun evində İslam dininin şəriətinə zidd işlərin olduğunu camaata elan edəcəm. Sonra şəriət üzərindən fətva çıxarıb o qazax qızının məmləkətin rəhbəri olan dorğama təslim edilməsini buyuracam" [1, s.734].

Səfərqulun ailəsi ilə Niyaz dorğa arasında başlanan konflikt romanda Teymur xəlifə ilə Şahmaqsud arasındakı ziddiyyətə qədər genişlənir, əsərin əsas ideya xətti açılmağa başlayır. Şahmaqsudun vergi yığımı adı altında əhaliyə zülm etməsi və bu zülmün pik nöqtəsi "Dəmir çarva" (sabit mal) sayımı cana yığılan əhalidə dağlara çəkilməsinə, Teymur xəlifənin başçılığı altında silahlı üsyanın başlanmasına səbəb olur. Məlum olur ki, sayım heç də ədalətli aparılmır, Səfərqulun ailəsi şəxsi zəmində yaranan ziddiyyətə görə saxta say göstərilməklə amansızcasına döyülür, Amanqul həbsə atılır. Sayım şərtləri o qədər ağırdır ki, insanlar inanclarına görə qadağan edilən addımı, yəni intihara belə əl atmağa məcbur qalırlar. Tohtiyaz Mergen adlı əqidəli bir şəxs sayım sonrası intihar edir. "Nerinkir tarixində belə bir hadisəni heç kim görməmişdi. Çünki bütün müsəlamnlar kimi buranın əhalisi də intihar etməyə çox pis baxırdı. Bu gün isə Tohtiyaz Mergen kimi güclü və asanlıqla baş əyməyən birinin özünü öldürməsi hamını çox təəccübləndirdi" [1, s.758].

Kumula rəhbərlik edən Şahmaqsudun şahlığı ələ keçirməsi belə ədalətsiz şəkildə baş verir, mərkəzi hökumətə onu özünə köməkçi kimi götürmək üçün məktub yazan Mehribanunun yazısını saxta yolla dəyişdirən Şahmaqsud şahlığı ələ keçirir. Beləliklə, onun zülmü bütün Kumul əhalisini zinhara gətirir.

Romanda yuxu motivi, ölümdənqaçma cəhdinə rast gəlmək mümkündür. Mirzə Fətəli Axundzadənin "Aldanmış kəvakib"ində Şah Abbas kimi, burada da Şahmaqsud başına gələcəkləri ilk növbədə yuxusunda görür.

Teymur xəlifənin məqsədi təkcə sosial məsələlərin həlli və eyni zamanda bu zülmün baiskarı Şahmaqsud deyil. O, ümumiyyətlə şahlığın ləğv edilməsinə, yeni idarəetmə üslulunun (təbii ki bu respublika idi) qurulması üçün mübarizə aparır. "Bərabərlik, azadlıq dediyin istəyib alınacaq bir şey deyil, çəkib alınacaq bir şey" [1, s.790].

Qeyd etdiyimiz kimi, "İz" romanının hər fəslində işlədilən epiqraflar həmin fəsildə cərəyan edən hadisələrin məğzini ifadə etməklə yanaşı, ümumilikdə yazıçının cəmiyyətə, insanlara mesajları xarakterindədir. On altıncı fəsildə Kubalı Culian Maridən gətirilən "İnsanlar təməl haqlarını göz yaşıyla deyil, qan tökərək əldə edirlər" [1, s.838], – fikri də təsadüfi olmayıb, Teymur xəlifənin timsalında Abdurrahim Ötkürün, ümulikdə uyğur milli düşüncəsinin müstəqil cümhuriyyət ideyalarının ifadəsi kimi xarakterizə oluna bilər.

Şahmaqsudun iki dəfə mərkəzi hökümətin köməyi ilə Teymur xəlifə üzərinə hücumu uğursuzluqla nəticələnir, dağlarda məskunlaşan üsyançılar hər iki döyüşdə böyük müvəfəqiyyət əldə edərək xeyli sayda silah-sursat ələ keçirib daha da güclənirlər. Bütün bunlara baxmayaraq, tarix boyu istifadə olunan hiyləgərlik burada da öz işini görür.

Təsadüfi deyil ki, türkün daş yaddaşı olan Orxon abidəsində, Bilgə xaqan zəif idarəetmənin, Tabğacın (Çinin) bər-bəzəyinə aldanmamağın türk xalqı üçün faciə ilə nəticəlindiyindən yazmışdır. "Biliksiz (cahil) xaqan taxta oturmuş, buyuruqları (əyanları) da biliksiz (cahil) imiş, yava (pis) imiş. Bəyləri, xalqı düz olmadığı üçün, Tabğaç (Çin) xalqının təhriki hiyiəgər olduğu üçün, yalançı olduğu üçün, kiçikli-böyüklü (kiçik qardaşlı-böyük qardaşlı) qızışdırdığı üçün, bəy xalq bir-birinin üstünə salışdırdığı üçün türk xalqı düzəltdiyi elini (dövlətini) dağıtmış (xaricə göndərmiş), xaqan qoyduğu xaqanını məhv etmiş (sona yetirərək göndərmiş). Tabğaç (Çin) xalqı bəyliyə layiq igid (hərfən: nəsli artırmalı olan) oğlanlarmı qul etdi, xanımlığa layiq qızlarını kəniz etdi. Türk bəyləri türk adını ataraq Tabğaçdakı (Çindəki) bəylər Tabğaç (Çin) adını qəbul edərək Tabğaç (Çin) xaqanına tabe olmuş" [3, s.342].

Şahmaqsudun mübarizə üsulunun yanlış olduğunu və məğlubiyyətlə nəticələndiyini görən mərkəzi hökumət hiyləyə əl atır. Baxmayaraq ki, Teymur xəlifə illər öncə Torpaq üsyanının necə baş verdiyini, yalançı vədlərlə yatırıldığını xatırlayıb "Ağac qazanda sadəcə bir aş bişər" fikrini dəfələrlə təkrarlasa da, sonunda özü də saxta sözün, yalançı vədin qurbanı olur. Yeni təyin olunan general Yan Teymur xəlifəni silahla məğlub edə bilməyəcəyini görüb hiylə diplomatiyasına əl atır, onu ələ almağa çalışır. Teymur xəlifənin imanlı olması, öz əqidəsinə sadiqliyini onun zəif yeri kimi görən general Yan bu istiqmətdə çalışmağa, onu bu yerindən vurmağa çalışır və sonunda bunu bacarır. Əsərdəki "Qoz ağacı sərt olduğu üçün ondan ox rahatlıqla keçib gedər, pambıq yumşaq olduğu üçün ox keçməz" [1, s.886] və ya "Quşu yem aldadır, insanı söz" [1, s.887] – fikirləri hiyləgərliyi göstərir.

General Yan imperializmin mahiyyətini ifadə edir, parçala, hökm sür ideyasına uyğun davranır. Onun fikrincə, xalqlar arasnıda milli nifaq olmasa onları idarə etmək mümkün deyil. Müxtəlif savaşlarda, o cümlədən Şərqi Türküstanda baş verən üsyanların yatırılmasında yerli uyğur əhalidən istifadə olunması, "sapı özündən" olanlardan istifadə edilməsi də hiyləgərlliyin, Yanın fikrincə, "fərasət"in ifadəsidir. "...önlərinə qılıncımızı sallayaraq getməkdənsə, qılıncı cübbənin ətəyi altında gizlədib "Barışaq!" deyib gülərək getməyimiz daha doğru. Gülərsənsə pələng belə toxunmaz deyirlər. Qılınc yanında asılı durarsa bunu hamı görər. Onu ürəyində saxlayarsansa, bunun heç kim fərqinə varmaz. Bax bunun adı fərasətdir. Savaşda gücə deyil, fərasətə arxalanmaq lazımdır. Bir insan gücü ilə on rəqibini məğlub edə bilməsə belə, fərasəti ilə min rəqibinə güc gələ bilər" [1, s.918].

General Yan İslam dininə yaxşı bələd olan Li Şufu vasitəsilə Teymur xəlifəni aldada bilir və onu Kumul dağlarından Urumçiyə gətirir, daha sonrasını isə Şahmaqsudun qoşunları həll edir, üsyançılar pərən-pərən olur.

Teymur xəlifə səhv etdiyini anlayıb geriyə, Kumul dağlarına qayıtmağa cəhd etsə də, nəticəsiz olur. O, ən yaxın silah dostu Amanqulla birlikdə öldürülür, onunla birlikdə Urumçiyə gələn döyüşçüləri də geri dönərkən xəyanət nəticəsində güllələbranda məhv edilirlər.

Kumul üsyanı yatırılsa da, xalqın milli mücadilə əzmi qırılmır. Teymur xəlifənin bütün ailəsini qətl etsələr də, oğlu Bəsiti qaçırmaq mümkün olur. Eləcə də Amanqulun oğlu Armanbəy, Nurul babanın nəvəsi Qali sağ qalır. Çingiz Aytmatovun Kiriski kimi ("Dəniz kənaryıla qaçan alabaş") onlar da xalqın gələcəyini təmsil edirlər. Çingiz Aytmatovun əsərdə yazdığı kimi, düşünəcək kimsənin, nəslin davamçısının qalması o deməkdir ki, qorxulu bir şey yoxdur [3]. Abdurrahim Ötkür romanın sonunda Kumul üzərindəki qara buludların sərt bir göy gurultusunun başlanğıcına işarə olduğunu yazır. Və Qafur Qulamdan gətirilən epiqraf yazıçının gələcəklə bağlı böyük ümidlərini ifadə etməkdədir:

*Ağaclar qurumaz, düşsə də yarpaq,*
*Dünyanın gələcəyi keçmişindən daha çox. [1, s.974]*

Yazıçı əsərini Hacıniyaz Hacının rəhbərliyi ilə növbəti üsyanın başlamasıyla bitirir. Bu isə milli mücadilənin davam etdiyini göstərir.

**Nəticə / *Conclusion***

Abdurrahim Ötkürün "İz" əsəri uyğur romanının həm üslub keyfiyyətləri baxımından, həm də mövzu-ideya dərinliyinə görə böyük əhəmiyyətə malik olan, özünün də qeyd etdiyi kimi, sonrakı əsərlərin yaranmasında önəmli bazis rolunu üzərinə götürən roman nümunəsidir. Doğrudur, əsərdə tarixi faktlar, sənədlilik bədii keyfiyyətləri üstələsə də, "İz" və ümumilikdə Abdurrahim Ötkürün yaradıcılığı uyğur romançılığının inkişafında mühüm mərhələdir.

**Ədəbiyyat / *References***


1. Abdurrahim Ötkür. İz / Özgür Ay (doktora tezi). İnceleme-Metin-Aktarma-Dizin. İzmir. 2007.
2. Çingiz Aytmatov. Dəniz kənarıyla qaçan alabaş / Seçilmiş əsərləri. İki cilddə, I cild.
3. Əbülfəz Rəcəbli. Qədim türk yazısı abidələri. IV cilddə, I cild. Bakı: Nurlan, 2009.
4. Gülzade Tanrıdağlı. Uygur edebiyatında roman. https://dergipark.org.tr/tr/download/article-file/136250\


## Художественное воплощение исторической действительности в романе «След» уйгурского писателя Абдуррахмана Откюра


**Мехман Гасанли**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: mehman.hesen@gmail.com



**Аннотация.** Основным жанром современной мировой литературы является роман, развитие которого в прозе тюркских народов относится к XX веку. В зависимости от исторических условий, происхождение и развитие романа у тюркских народов происходило по-разному. В

богатой древней уйгурской культуре литературный жанр романа получил развитие во второй половине XX века – 1970-1980-х годах. Романы известного уйгурского интеллектуала, писателя, поэта Абдуррахмана Откюра можно характеризовать как летопись уйгурской жизни XX века. Одним из лучших является роман «След», повествующий об истории национальной борьбы уйгуров. В статье исследованы вопросы отражения прозой в романе Абдуррахмана Откюра исторические события 1911-1913 годов, происходившие в Восточном Туркестане.
**Ключевые слова:** тюркские народы, роман, уйгурский писатель, Абдуррахман Откюр, поэт